**Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi**
**Kollegiya Qərarı**

**№ 8**

**Bakı şəhəri** **17 noyabr 2017-ci il**

**"Xaricdə yaşayan azərbaycanlıların müraciətlərinin qəbulu üzrə inzibati reqlament"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi Kollegiyasının 2015-ci il 7 dekabr tarixli 4 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında**

"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 may tarixli 1399 nömrəli Fərmanının 2.4-cü bəndinin icrasının təmin edilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 may tarixli 95 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 17-ci hissəsinə uyğun olaraq Azərbaycan Respublikası Diasporla iş üzrə Dövlət Komitəsinin Kollegiyası

**QƏRARA ALIR:**

**1.** "Xaricdə yaşayan azərbaycanlıların müraciətlərinin qəbulu üzrə inzibati reqlament"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi Kollegiyasının 2015-ci il 7 dekabr tarixli 4 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** preambulada "Dövlət orqanlarının" sözlərindən sonra "və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin" sözləri əlavə edilsin.

**1.2.** Həmin Qərarla təsdiq edilmiş "Xaricdə yaşayan azərbaycanlıların müraciətlərinin qəbulu üzrə inzibati reqlament" üzrə:

**1.2.1.** 1.3.5-ci yarımbənddə "Dövlət orqanlarının" sözlərindən sonra "və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin" sözləri əlavə edilsin;

**1.2.2.** 3.4.3-cü yarımbənddə "dövlət orqanı" sözləri "dövlət qurumu" sözləri ilə əvəz edilsin.

**2.** Hüquq təminatı, ümumi və kadrlar şöbəsi bu Qərarı qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsin.

**Kollegiyanın sədri** **Nazim İbrahimov**